Food and Agriculture Organization of the United Nations

SUSTAINABLE DEVELOPMENT GOALS

16 oktyabr 2022-ci il

# Ümumdünya Ərzaq Günü




**Daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və daha yaxşı həyat.**

# MANEƏLƏR

Pandemiyadan sonrakı üç il ərzində iki həqiqət ortaya çıxdı. Bunlardan biri iqtisadiyyatlarımızın və həyatlarımızın bir-biri ilə nə qədər əlaqəli olmasıdır.  Digəri isə göstərilən bərpa səyləri fonunda həddən artıq insanın geridə qoyulması və innovasiya və tərəqqidən digərləri ilə bərabər səviyyədə faydalana bilməməsidir. Münaqişələr, iqtisadi böhranlar, bərabərsizlik, iqlim böhranı və ərzaq qiymətlərinin yüksəlməsi nəticəsində, bu gün dünyada hələ də 3.1 milyard insanın sağlam qidalanmağa maddi imkanı çatmır. Digər tərəfdən isə, ifrat yoxsulluq həddində yaşayan hər üç nəfərdən ikisi kənd mühitlərində yaşayır və onların dolanışığı əsasən kənd təsərrüfatından asılıdır. Qlobal aclıq böhranı fonunda, biz hər kəsin kifayət qədər qidalı maddələrlə zəngin ərzaq məhsullarına daimi çıxışının olduğu dayanıqlı bir dünya qurmaq üçün həmrəylik və birgə fəaliyyətin gücündən faydalanmalıyıq.



©FAO/Sumy Sadurni



# Qlobal aclıq yeni zirvədə

Hələ də artmaqda olan aclıq 2021-ci ildə 828 milyon insana təsir edib. Bu, 2020-ci illə müqayisədə 46 milyon nəfər, 2019-cu illə müqayisədə isə 150 milyon nəfər çoxdur. Böhran səviyyəli kəskin ərzaq çatışmazlığı təhlükəsi və ya qısa müddətdə insanların ərzağa çıxışını məhdudlaşdıraraq onların həyatlarını və dolanışıq vasitələrini risk altında qoyan gözlənilməz, qəfil böhranlarla bağlı vəziyyət də oxşardır. Cəmi iki il ərzində, ərzaq çatışmazlığı təhlükəsinin kəskin həddi ilə üzləşən insanların sayı 135 milyondan 193 milyona çatıb və 2022-ci ildə vəziyyətin daha da pisləşəcəyi gözlənilir. Beş ölkədə (Əfqanıstan, Efiopiya, Somali, Cənubi Sudan və Yəmən) təqribən 750 min nəfər qıtlıq şəraitində yaşayır. Bu, FAO-nun və Dünya Ərzaq Proqramının 2022-ci ilin iyun ayında nəşr olunmuş "Aclığın qaynar nöqtələri" ("Hunger Hospots") adlı hesabatına əsasən 2020-ci illə müqayisədə 5 dəfə çoxdur.

Dünyanın bəzi hissələrində insanlar aclıqdan həyatını itirir və uşaqlar kəskin pis qidalanma nəticəsində sağlam həyat sürmək imkanlarını itirirlər. Hətta yüngül və orta dərəcəli pis qidalanma da uşağın müxtəlif səbəblərdən ölüm riskini artıra bilər və fiziki və əqli inkişafa qalıcı təsir göstərir. Birlikdə bu təsirlər, illərlə göstərilən gərgin səylər nəticəsində əldə olunmuş inkişaf nailiyyətlərini təhlükə altında qoyur.

Münaqişələr, iqtisadi tənəzzül və geriləmələr, fövqəladə iqlim hadisələri və ətraf mühitin deqradasiyası ərzaq çatışmazlığı təhlükəsinin və qlobal aclığın əsas təkanverici qüvvələridir. Təchizat zəncirlərini qıran və insanların gəlir əldə etmək imkanlarını məhdudlaşdıran COVID-19-un "domino effekti" yaradan təsirləri də bu qəbildəndir.

Ukraynadakı müharibə səbəbilə, əsas idxalçı ölkələrin dünyanın əsas taxılçılıq mərkəzlərindən biri olan bu regiondakı əsas taxıl məhsullarına çıxışını itirməsi, eləcə də istehsal vasitələrinin, xüsusən də gübrələrin qiymətinin artması səbəbindən onların fermerlər üçün əlçatanlığının azalması və növbəti mövsüm üçün əsas qida bitkilərinin və qida maddələri ilə zəngin digər ərzaq məhsullarının becərilməsinin çətinləşməsi vəziyyəti daha da kəskinləşdirib. Nəticədə, daha da artmış qiymətlər milyonlarla insanı aclıq və pis qidalanmaya sürükləyə bilər.

Müharibə və münaqişə şəraitində, yaxud təbii fəlakətlərə meylli ərazilərdə yaşadıqda, aclıq, pis qidalanma və yoxsulluqla mübarizə daha da çətinləşir. Son onilliklərdə, getdikcə daha çox böhran fəlakətli, qısamüddətli hadisələrdən, geniş çeşidli şokları özündə birləşdirən və zaman keçdikcə daha çox insanın geridə qoyulmasına səbəb olan uzunmüddətli və uzanan böhranlara çevrilmişdir.



# UKRAYNADAKI MÜHARİBƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNƏ NECƏ TƏSİR EDİR?

TRusiya Federasiyası və Ukrayna dünyada əsas taxıl və yağlı toxum istehsalçıları arasındadır. Hər iki ölkə kənd təsərrüfatı məhsullarının xalis ixracatçılarıdır və ixrac edilə bilən məhsulların çox vaxt cəmi bir neçə ölkədə cəmləşdiyi qlobal bazarlarda gündəlik ərzaq məhsullarının və gübrələrin aparıcı təchizatçılarıdır. Yüksək cəmləşmə səviyyəsi bu bazarların şoklara və dəyişkənliyə qarşı həssaslığını artıra bilər. 2021-ci ildə həm Rusiya Federasiyası, həm də Ukrayna buğda, arpa, qarğıdalı, raps və raps yağı, günəbaxan toxumu və günəbaxan yağının qlobal ixracatçıları arasında ilk üçlükdə yer alıb. Rusiya Federasiyası həmçinin, azot gübrələrinin ən böyük qlobal ixracatçısı, kalium gübrələrinin ikinci, fosfor gübrələrinin isə üçüncü ən böyük ixracatçısı kimi yer alıb.

Ukraynadakı müharibə nəticəsində ərzaq qiymətlərindəki kəskin sıçrayış onsuz da ərzaq böhranı ilə üzləşməkdə olan ölkələrin və taxıl məhsullarının 30 faizindən çoxunu bu iki ölkədən idxal edən ölkələrin bu məhsullara çıxış imkanlarına, idxal xərclərinin artması səbəbindən, əhəmiyyətli dərəcədə təsir göstərib.

Yüksək gübrə qiymətləri davam edərsə, bugünkü böhran bir çox digər ərzaq bitkiləri, xüsusilə də düyü üçün əkin mövsümünə təsir göstərə bilər ki, bu da Asiyada və Afrikanın Böyük Səhradan cənubdakı hissəsində milyardlarla insana təsir göstərə bilər.



# Artan qiymətlər



©FAO/Riccardo De Luca

Təchizat zəncirindəki problemlər, nəqliyyat xərclərinin kəskin artması və COVID-19 pandemiyasının səbəb olduğu digər problemlər, Ukraynadakı müharibə də daxil olmaqla dünyanın bir sıra regionlarındakı münaqişələr və ekstremal iqlim hadisələrinin tezliyinin artması və intensivliyi səbəbindən ərzaq qiymətləri ötən il ərzində artıb.

Dünyanın müxtəlif yerlərində fermerlər daha az əkinə keçməklə, daha az qidalı maddə tələb edən məhsullara üstünlük verməklə və ya məhsuldarlığa zərər verə biləcəyinə baxmayaraq, gübrə istifadəsini azaltmaqla istehsal vasitələrinin builki yüksək xərclərini əvəzləşdirməyə çalışdılar. Artan yem xərcləri onların heyvandarlığı davam etdirməsini çətinləşdirdi. İstehsalın kiçilməsi riski ilə ən çox inkişaf etməkdə olan ölkələr üzləşirlər, çünki fermerlər məhsulların qiymətləri ilə müqayisədə istehsal vasitələrinin daha sürətlə artan qiymətlərini əvəzləşdirmək üçün daha az maliyyə resurslarına malikdirlər.

Ərzaq və istehsal vasitələrinin qiymətlərindəki sıçrayışlar qlobal ərzaq təhlükəsizliyinə və qidalanmaya qarşı yaratdığı bariz təhlükədən başqa, həm də gəlirləri məhdudlaşdıra, bazarları sarsıda və sosial iğtişaşlara səbəb ola bilər.



©FAO/Hashim Azizi

# Məhdud büdcə imkanları


©FAO/K.Purevraqchaa

Əksər inkişaf etməkdə olan ölkələr bu böyük qiymət artımlarının və ərzaq idxalı xərclərindəki müvafiq artımın mənfi təsirlərini yumşaltmaq üçün büdcə imkanlarına malik deyil.  Bundan əlavə, bir çoxları borc ala bilmir, çünki kredit bazarları onların üzünə bağlıdır. Borc ala bilənlərə isə yüksək faiz dərəcələri tətbiq edilir ki, bu da onları borc çətinliyi və defolt riski ilə üz-üzə qoyur.

Bir çox inkişaf etməkdə olan ölkələr artıq defoltun astanasındadır. Aztəminatlı ailələr öz ərzaq təhlükəsizliyini, qidalanmasını və layiqli həyat səviyyəsini qorumaq üçün indi həmişəkindən daha çox sosial təhlükəsizlik təminatlarına ehtiyacı duyur. Beynəlxalq ictimaiyyət önə çıxmalı və ən həssas təbəqələrə dəstək üçün səyləri əlaqələndirməlidir.


©FAO/Victor Sokolowicz



## QISA DALĞALANMALARIN UZUN FƏSADLARI




**2009-cu ildə Filippinə zərbə vuran Ondoy və Pepeng tayfun qasırğalarından üç il sonra, zərər çəkmiş Rizal əyalətində yoxsulluq səviyyəsi təxminən iki dəfə artıb.**




**Ebola böhranı nəticəsində ticarətin azalması, sərhədlərin bağlanması, xarici sərmayələrin kiçilməsi və turizmin azalması nəticəsində Qərbi Afrika 2014-2017-ci illər arasında ildə orta hesabla 3,6 milyard ABŞ dolları həcmində gəlir itirmiş ola bilər.**



# NÖVBƏTİ ADDIMLAR

Aqro-ərzaq sistemlərimiz kənd təsərrüfatından təbii ehtiyatlara, enerjidən sağlamlığa qədər həyatımızın və iqtisadiyyatımızın müxtəlif sahələri ilə qarşılıqlı əlaqəli olduğundan, daha ədalətli və firavan gələcəyə aparan vasitələr kimi böyük potensiala malikdirlər. Heç kəsi geridə qoymamaq və daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və hamı üçün daha yaxşı həyat təmin etmək öhdəliyimizi yerinə yetirmək istəyiriksə, aqro-ərzaq sistemlərinin transformasiyası vacibdir.

Bu səbəbdən, aqro-ərzaq sistemlərinin transformasiyası qlobal gündəmdə əvvəlkindən daha aktualdır. 2021-ci ildə keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Qida Sistemləri Sammiti və digər çoxtərəfli təşəbbüslər dünyanın bir çox ölkəsində aqro-ərzaq sistemlərinin transformasiyası üçün dialoqlara və həll yollarının hazırlanmasına təkan verdi. Bununla belə, heç kimin geridə qoyulmamasını təmin etmək üçün hələ görüləsi işlər çoxdur.

©Nikos Economopoulos/Magnum Photos for FAO

Birincisi, biz daha səmərəli, inklüziv, dözümlü və dayanıqlı aqro-ərzaq sistemlərinə sərmayə qoymaqla ən həssas təbəqələri, o cümlədən kiçik ölçülü istehsalçıları gücləndirməliyik. Bu o deməkdir ki, biz təlimlərə, stimullaşdırıcı tədbirlərə, innovasiyalara və digərlərinə çıxışı yaxşılaşdırmalıyıq ki, kiçik təsərrüfat sahibləri də bu transformasiyanın mərkəzində ola və dayanıqlı inkişafın fəal və bərabərhüquqlu nümayəndələrinə çevrilə bilsinlər.

Eyni zamanda, hökumətlər ən həssas əhali qruplarını qorumaq üçün vaxtında və düzgün hədəflənmiş sosial müdafiə proqramları təqdim etməlidirlər. Nağd pul yardımından savayı, bu, qidalı maddələrlə zəngin ərzaq məhsulları və aqrar istehsal vasitələrinin təmin edilməsi, kənd təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsi, eləcə də insanların dolanışıq vasitələrini qoruyan və onların qidalanma vəziyyətini yaxşılaşdıran əlavə tədbirləri ehtiva edə bilər.

Bu, uzunmüddətli perspektivdə çox faydalı ola bilsə də, baha başa gəlir və bu da bir çox inkişaf etməkdə olan ölkələr üçün çətindir. Maliyyə böhranına cavab olmadan ərzaq böhranına cavab ola bilməz. Məhz buna görə də, G20 ölkələri aclıq, pis qidalanma və qıtlıq riski ilə üzləşən ölkələrin aqro-ərzaq sistemlərinin transformasiyası, humanitar çağırışların maliyyələşdirilməsi və dayanıqlılığın artırılması yolu ilə, bu ölkələrə dəstək göstərməlidir. Kənd təsərrüfatının xərc baxımından ən səmərəli humanitar müdaxilələrdən biri olduğunu nəzərə alaraq, birbaşa dəstək kimi, həm qidalı maddələrlə zəngin yerli ərzaq məhsulları istehsalının artırılmasına, həm də təbii ehtiyatların qorunmasına daha çox prioritet verilməlidir.

Xüsusən, maliyyələşdirmə kənd təsərrüfatı mövsümlərinə uyğun olaraq vaxtında tədbirlər görməyə imkan verdikdə, beynəlxalq maliyyə institutları investisiyalar və ya borclarının azaldılması vasitəsilə, inkişaf etməkdə olan ölkələrin maliyyə imkanlarını dəstəkləməlidirlər. Bu, onların güclü sosial təhlükəsizlik təminatlarını təmin etməyə davam edə bilməsinə, kənd yerlərinə investisiya etməsinə və aqro-ərzaq sistemlərini gücləndirməsinə imkan verər.

İqlim böhranı, biomüxtəlifliyin itməsi, o cümlədən ekosistemlərin deqradasiyası, növlərin itirilməsi və genetik ehtiyatların aşınması, eləcə də təbii ehtiyatlara çıxış uğrunda rəqabətin bir-birinə qarışan təsirləri qısa və uzunmüddətli perspektivdə aqro-ərzaq sistemləri və əlaqədar dolanışıq vasitələrinə mənfi təsir göstərir.

İqlim böhranının təsirləri ilə əlaqədar olaraq, iqtisadi əhəmiyyətli bitkiləri məhv edən bitki zərərvericiləri getdikcə daha dağıdıcı xarakter alır və ərzaq təhlükəsizliyi və ətraf mühit üçün yaratdığı təhlükə artır. Kiçik fermerlər, dolanışıqları bitkilərin sağlamlığından asılı olan insanlar və ərzaq çatışmazlığı təhlükəsinin olduğu ölkələrdə yaşayanlar bu risklərə qarşı xüsusilə həssasdırlar.

Bitkiləri zərərvericilərdən və xəstəliklərdən qorumaq bitki sağlamlığı ilə bağlı yaranmış fövqəladə hallarla mübarizə aparmaqdan daha səmərəlidir. FAO davamlı monitorinq, erkən xəbərdarlıq və innovativ və ekoloji cəhətdən təmiz, dayanıqlı, qabaqlayıcı nəzarət strategiyalarının təşviqi vasitəsilə, bitki zərərvericiləri və xəstəliklərinin potensial təsirinin qarşısını almaq və nəzarət etmək üçün dayanıqlı və ekoloji yanaşmaları təşviq edir.

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin 2022-ci il üzrə hesabatında bildirilir ki, dünyanın bütün regionlarına təsir edən hava və iqlimlə əlaqəli ekstremal hadisələr artıq milyonlarla insanı ərzaq təhlükəsizliyinin kəskin zəifləməsi və su təhlükəsizliyinin azalması ilə üz-üzə qoyub. Təbii sərvətlərimizin dayanıqlı şəkildə idarə olunması və istifadəsi təkcə ətraf mühitin yaxşılaşdırılmasına kömək etmir, həm də aqro-ərzaq sistemlərimizin hamının xeyrinə transformasiyasını təmin etmək üçün çox vacibdir.

# FAO-nun FƏALİYYƏTİ



©FAO/Arete/Isak Amin

**Heç kəsin geridə qoyulmaması eyni vaxtda bir çox cəbhələrdə fəaliyyəti şərtləndirir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) üçün buraya kənd yerlərində layiqli məşğulluğun və xidmətlərin təşviqi, sosial müdafiənin təmin edilməsi, uşaq əməyinə son qoyulması və ərzaq böhranı ilə üzləşən ölkələrdə əhalinin həssas qrupları üçün yerli ərzaq məhsullarının istehsalına dəstəyin göstərilməsi, eyni zamanda gender bərabərliyinin təşviqi və Yer kürəsinin biomüxtəlifliyinin böyük hissəsinin qoruyucuları olan yerli xalqların və kənd əhalisinin dəstəklənməsi daxildir. Boşluğu aradan qaldırmaq üçün FAO-nun istifadə etdiyi yollara misal olaraq, aşağıdakılar göstərilə bilər.**

- FAO **Qvatemala**, **Keniya**, **Ruanda**, **Seneqal**, **Tunis** və **Uqandada** hökumətlərə aqro-ərzaq sistemlərində gənclər üçün daha çox və daha yaxşı iş yerlərini təşviq edən və onların təlim və maliyyəyə çıxış imkanlarını artıran siyasət, strategiya və proqramlar qurmaqda kömək edir.
- FAO **Filippinin** sosial müdafiə sistemini şok vəziyyətlərinə daha hazırlıqlı etmək üçün **Filippin** Hökuməti ilə işləyir. Nəticədə, COVID-19 meydana çıxdıqda, Hökumət həssas ərazilərdəki insanlara sürətlə əlavə pul köçürməyə və sistemin əhatə etdiyi ailələrin sayını artırmağa nail oldu.
- FAO-nun dəstəyi ilə, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri daha çox **qadın sahibkarları** balıqçılıq, quşçuluq, balçılıq və turizm üzrə **dəyər zəncirlərinə** cəlb edir. **Barbados, Kabo-Verde, Komor adaları, Palau, Sent-Lüsiya** və **Samoada** qadınlar resurslar, texnologiyalar və xidmətlər üzərində daha yaxşı nəzarət əldə edirlər.
- FAO **fermer bazarlarının qlobal şəbəkəsini** yaradır və istehlakçıları qidalı ərzaq məhsulları ilə əlaqələndirən və istehsalçıların **yeni bazarlara çıxışını** artıran siyasətlərin qurulması istiqamətində hökumətlərlə işləyir.
- FAO **Ekvador, Hindistan, Peru və Tailandda** yerli biliklərə əsaslanan daha inklüziv yanaşma olan **biosentrik bərpa** yolu ilə yerli ərazilərdə təxminən 1000 hektar sahəni bərpa etmək üçün **yerli xalqlarla** işləyir.

- **Somalidəki** quraqlığa cavab olaraq, FAO və yerli hökumət tərəfdaşları 275 000 insanın öz istehsal öz istehsal vasitələrini, ərzaq təhlükəsizliyini və qidalanmasını qoruyub saxlaya bilməsi üçün 11 milyon heyvanı yem təminatı və baytarlıq xidməti vasitəsilə qorumaq üçün tədbirlər görür.

- Təkcə **2021**-ci ildə FAO dünyada 30 milyondan çox insana **humanitar dolanışıq yardımı** göstərərək, onların çoxsaylı böhranlara baxmayaraq, ailələri və icmaları üçün ərzaq istehsalına davam etməsinə kömək etdi.



FAO yoxsulluğun aradan qaldırılması (1-ci DİM), aclığa və pis qidalanmaya son qoyulması (2-ci DİM) və bərabərsizliklərin azaldılması (10-cu DİM) vasitəsilə aqro-ərzaq sistemlərinin transformasiyasını sürətləndirmək üçün milli əsaslı, iddialı proqramların həyata keçirilməsinə dəstək göstərən "Əl-ələ" ("Hand-in-Hand") təşəbbüsü çərçivəsində ən həssas ölkələrlə işləyir. O, aqro-ərzaq sistemlərinin bazara əsaslanan transformasiyasını sürətləndirmək üçün qabaqcıl geoməkan modelləşdirməsi və analitikadan, eləcə də möhkəm tərəfdaşlıq qurma yanaşmasından istifadə edir, bu da gəlirlərin artmasına, yoxsul və həssas əhali arasında qidalanmanın və rifahın yaxşılaşmasına və iqlim böhranına qarşı davamlılığın gücləndirilməsinə gətirib çıxarır.

Təşəbbüs yoxsulluq və aclığın ən yüksək olduğu, milli imkanların məhdud olduğu və ya təbii və ya texnogen böhranlar səbəbindən əməliyyat çətinliklərinin ən çox olduğu ölkə və əraziləri prioritetləşdirir. Dəstək istiqamətlərinə prioritet məhsullar üçün dəyər zəncirlərinin inkişafı, aqrosənayelərin və səmərəli su idarəetmə sistemlərinin qurulması, rəqəmsal xidmətlərin və dəqiq əkinçilik konsepsiyasının tətbiqi, ərzaq itkilərinin və israfının azaldılması, iqlim problemləri və hava risklərinin həlli daxildir.

## UKRAYNAYA YARDIM




Ukraynadakı ailələrin növbəti məhsul yığımı mövsümü üçün vaxtında məhsul əkini həyata keçirə bilməsi üçün FAO onlara köməklik göstərir. FAO, 12 iyul 2022-ci il tarixinədək Ukraynanın 13 vilayətində 30 622 ailəyə (80 min nəfər) təxirəsalınmaz kənd təsərrüfatı dəstəyi göstərib. Bundan, 10 vilayətdə 16 855 ailəyə (4 3823 nəfər) kartof toxumu, 11 vilayətdə 20 147 ailəyə (5 2382 nəfər) tərəvəz dəstləri təqdim edilib, bəzilərinə isə hər iki növ dəstək göstərilib.

3 700 kəndli ailəsinə (9 620 nəfər) təqdim edilən çoxməqsədli pul yardımı həm də Ukraynanın şərq və cənub hissələrində ən böyük zərbəyə məruz qalmış yerlərdə yaşayan əhalinin ilkin ehtiyaclarını qarşılayır. Pul yardımının məbləği ev təsərrüfatının ölçüsünə əsaslanır və hər nəfər üçün üç ay üzrə 226 ABŞ dolları (6 660 Ukrayna qrivnası) təşkil edir. FAO, həmçinin, ərzaq məhsullarının mövcudluğunu və müyəssərliyini artırmağa səy göstərir və tələb olunan texniki dəstək və avadanlıqlar vasitəsilə taxıl məhsullarının saxlanması ilə bağlı çatışmazlıqların həlli üçün tədbirlər görür.
.

## SƏHRA ÇƏYİRTKƏSİ BÖHRANINA VAHİD YANAŞMA




Səhra çəyirtkəsi dünyada ən dağıdıcı köçəri zərərvericidir. O, Afrikada milyonlarla insanın dolanışıq vasitələrinin asılı olduğu otlaq və əkin sahələrində qidalanaraq, onların ərzaq təhlükəsizliyini təhlükə altında qoyur.

2020-ci ilin yanvar ayından 2022-ci ilin yanvar ayına qədər FAO-nun tam maliyyələşdirilmiş çağırışı zərər çəkmiş ölkələrdə 2.3 milyon hektara yaxın torpaqların təmizlənməsinə imkan verdi. Bu səylər 4.5 milyon ton məhsul itkisinin qarşısını almış, 900 milyon litr süd istehsalını xilas etmiş və 41.5 milyon insanın ərzaq təhlükəsizliyini təmin etmişdir. Müdaxilə nəticəsində qarşısı alınan dənli bitki və süd itkilərinin kommersiya dəyərinin 1.77 milyard ABŞ dolları olduğu qiymətləndirilir.

Müdaxilənin bir hissəsi kimi, zərər çəkmiş ailələrə 14 milyon ABŞ dolları pul yardımı verilmiş, 750 000 cins heyvan yem dəstəyi vasitəsilə qorunmuş və həyatları və dolanışıq vasitələrini xilas etmək üçün 150 000 təsərrüfat alətləri dəsti təmin edilmişdir.

## DİQQƏT MƏRKƏZİNDƏ: "TƏMİZ PAMBIQ" LAYİHƏSİ




Uşaq əməyi çox vaxt zərurətdən və bir çox kəndli ailələrin öz təsərrüfatlarında ödənişli əsasda əlavə işçi qüvvəsi cəlb etməyə maddi imkanının olmamasından qaynaqlanır. Məhz buna görə də, Burkina Faso, Mali və Pakistanda FAO "Təmiz pambıq" ("Clear Cotton") layihəsi çərçivəsində Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq edir. Layihə yalnız uşaqların müdafiəsinə yönələn milli siyasətləri təşviq etmir, həm də pambıq istehsalçılarının öz uşaqlarının əməyindən asılılığını azaltmaq üçün kənar gəlir mənbələri qurmasına fəal şəkildə kömək edir. Layihə həssas qruplara daxil olan kəndli ailələr üçün təlimlərə, istehsal vasitələrinə və maliyyəyə çıxış imkanı təmin etməklə, onların öz təsərrüfatlarında kənar işçi qüvvəsi cəlb etmək və uşaqlarını məktəbə göndərmək üçün kifayət qədər gəlirli mikro-bizneslər qurmasına imkan verir. FAO artıq 1000-dən yuxarı həssas ailəyə quşçuluq, ətlik qoyunçuluq, küncüt istehsalı kimi yüksək gəlirli fəaliyyətlər üzrə hazırlıq keçib.

## ƏFQANISTANDA FERMERLƏRƏ DƏSTƏK




2021-ci ildə FAO Əfqanıstanda 30 əyalətdə fermerlərə buğda becərmə dəstləri təmin etməklə köməklik göstərib. Bu tədbirin 1.3 milyon nəfər əfqanı bütün il boyu qidalandırmaq üçün kifayət qədər əsas ərzaq məhsulları yetişdirməyə kömək etməsi gözlənilir. Hər paketə 0.4 hektar torpaq sahəsində əkmək üçün 50 kq yüksək keyfiyyətli buğda toxumu, 50 kq gübrə və texniki təlim daxil olub. 2022-ci ildə FAO öz proqramlarını genişləndirir və ilin sonunadək 9 milyon nəfəri əhatə etməyi planlaşdırır.

# İnnovasiya

FAO elm və innovasiyanın transformativ potensialından yararlanmaq üçün önəmli addımlar atmaqdadır. Təşkilatın ilk dəfə hazırlanmış "Elm və innovasiya strategiyası" çeşidli innovasiyaların (texnoloji [o cümlədən rəqəmsal]), sosial, siyasi, maliyyə və institusional) zəruriliyini təsdiq edir. Yeni alətlər və yanaşmalar bizim əkinçilik və heyvandarlıq təcrübələrimizi, heyvan, bitki və insan sağlamlığına mənfi təsir edən zərərvericilər və xəstəliklərlə mübarizə üsullarımızı, təbii sərvətləri müdafiə və bərpa etmək üçün istifadə etdiyimiz üsulları və böhranlar zamanı davranışımızı dəyişir.  Bundan əlavə, transformativ tərəfdaşlıqlar və innovativ maliyyələşmə fəaliyyətə təkan vermək və təsirli nəticələr üçün əlaqələndirilmiş səyləri sürətləndirmək baxımından zəruridir. Heç kəsin geridə qalmamasını təmin etmək üçün laboratoriyalardan tutmuş yerli xalqların biliklərinə və kiçik ölçülü istehsalçılara qədər, innovasiyanın bütün sahələrinə investisiya etməyimiz son dərəcə vacibdir. Çünki bu, aclığa və pis qidalanmaya son qoymaq üçün yerli ehtiyaclara və ekoloji kontekstlərə uyğunlaşdırılmış ən yaxşı həll yollarını tapmağımıza imkan verəcək.

Həm istehsalçılar, həm də siyasətçilər üçün qərarların qəbulunda dəqiq və yeni məlumatlar son dərəcə vacib rol oynayır. FAO-nun "eLocust3" monitorinq aləti 2020-2021-ci illərdə Somali yarımadasında və Yəməndə meydana çıxmış səhra çəyirtkəsi hücumuna qarşı erkən tədbirlər görməyimizdə və uğurla mübarizə aparmağımızda çox vacib rol oynadı. "Google Earth" xəritəsi və FAO-nun "Hand-in-Hand" (HIH) geoməkan platforması "Google Earth" Mühərrikinin gücünü və FAO-nun irihəcmli məlumat kataloqunu hər kəsin kompüterinə gətirir və bununla torpaq, su, əkin və heyvandarlıq şəraitinin, sosial-iqtisadi və iqlim məlumatlarının təhlilinə imkan verir.

Müasir tədqiqatlar və işləmələr aqro-ərzaq sistemlərinin ehtiyac duyulan transformasiyasına sürətli şəkildə başlamağa kömək edə bilər. Məsələn, FAO və Beynəlxalq Atom Enerjisi Agentliyinin Birgə Mərkəzi və laboratoriyaları torpaq və su idarəetməsi, bitkilərin qidalanması, heyvan sağlamlığı və qida təhlükəsizliyi üzrə nüvə və izotop üsullarını optimallaşdırmaq üçün yeni yanaşmalar hazırlayır.

Ərzaq və Kənd Təsərrüfatı üzrə Qlobal Məlumat və Erkən Xəbərdarlıq Sistemi (GIEWS) ərzaq tələb və təklifinin, eləcə də ərzaq təhlükəsizliyinin digər göstəriciləri üzrə  monitorinq apararaq mümkün böhranlar barədə xəbərdarlıq verir və bununla dövlətlərə və inkişaf təşkilatlarına ərzaq məhdudlaşdıqda və ya maddi baxımdan əlçatan olmadıqda çevik tədbirlər görmək imkanı verir.

Daha yaxşı texnologiyalar və məlumatlar meydana çıxan böhranları öncədən proqnozlaşdırmaq və erkən hərəkət etmək və nəticədə onların təsirlərini əhəmiyyətli dərəcədə azaltmaq üçün alətlərə malik olduğumuzu ehtiva edir. FAO erkən xəbərdarlıq nişanları əsasında erkən tədbirlərin miqyasını genişləndirməyə yönələn qlobal səylərə rəhbərlik edir. Belə ki, FAO-nun böhrandan zərər çəkmiş ailələrin dolanışıq vasitələrinin qorunmasına etdiyi hər bir dollarlıq investisiya onlar üçün təqribən 7 dollar olaraq qayıdır.

Müəyyənləşdirmə, İcra və Səlahiyyətləndirmə Tətbiqi (IDEA) sistemi yardıma ehtiyacı olan insanlar üçün dəstək əldə etməyi (o cümlədən elektron talonlar və mobil pul) asanlaşdırır və FAO-nun heyəti mürəkkəb əməliyyat mühitlərində belə, benefisiarları qeydə ala və dəstək göstərə bilir.

Bundan əlavə, FAO özünün Rəqəmsal Kəndlər Təşəbbüsü vasitəsilə, ən azı 1000 kəndi rəqəmsal mərkəzə çevirməkdədir. Bu, bütün fermerlərin onlayn mühitə daxil olmasına, öz istehsalları barədə məlumatlı qərarlar verməsinə və yeni bazarlara, alətlərə və xidmətlərə çıxış qazanmasına imkan verir.

FAO-nun Fermerlər üçün Sahə Məktəbləri də öz növbəsində, fermer icmalarında əməkdaşlıq şəraitində və praktiki şəkildə yeni metodların və dayanıqlı təcrübələrin tətbiqində qarşılıqlı öyrənmə üsulunun tətbiqi baxımından innovativ xarakter daşıyır.

2050-ci ilədək dünyada şəhər əhalisinin payının 70faiz-ə yaxın olacağının gözlənildiyini nəzərə alaraq, FAO-nun Yaşıl Şəhərlər Təşəbbüsü şəhər mühitinin yaxşılaşdırılmasına, şəhər-kənd əlaqələrinin və şəhərlərin ərzaq sistemlərinin, xidmətlərin və əhalinin xarici şoklara davamlılığının gücləndirilməsinə yönəlir.



©Ismail Taxta/ Arete


©FAO/ Ezequiel Becerra


©FAO/ Cristiano Minichiello



# SİZ DƏ QOŞULUN

## QİDA QƏHRƏMANLARI

Kiçik ölçülü təsərrüfatlar dünyadakı istehsalçıların 80faiz-ni təşkil etsə də, dünyada ərzaq məhsullarının cəmi üçdə birindən çoxunu istehsal edir. Onlar bizim aqro-ərzaq sistemlərimizin təməllərindən birini təşkil etsə də, çox zaman yoxsulluq və ərzaq çatışmazlığı təhlükəsinin məngənəsində ilişib qalır və iri istehsalçıların və pərakəndə ticarətçilərin hökmranlıq etdiyi sistemlərdə mövcud olan imkanlardan məhrum olurlar. Biz heç kəsin kənarda qalmamasını təmin etməkdə qərarlıyıqsa, bütün istehsalçılar üçün bərabər imkanlar təmin etmək üçün hazırkı aqro-ərzaq sistemlərimizin transformasiyasını təmin etməli, kiçik təsərrüfatların yeni bazarlara çıxış imkanı əldə etməsinə kömək etməliyik. Bu, həmçinin, kənd yerlərində transformasiyaya investisiyanı ehtiva edir.

©FAO/ Amos Gumulira



### Hökumətlərin ata biləcəyi addımlar

- Kimlərin və niyə geridə qaldığını müəyyən etmək üçün əhali yönümlü məlumatlardan istifadə etmək və boşluğu aradan qaldırmaq üçün siyasətlər hazırlamaq.
- İcmaları yaxınlaşan təhlükələr barədə məlumatlandırmaq üçün erkən xəbərdarlıq xarakterli məlumatlardan istifadə etmək və böhran baş vermədən həyatları və dolanışıq vasitələrini qorumaq üçün onları önləyici tədbirlərlə əlaqələndirmək.
- Müəssisələrin inklüzivliyini, şəffaflığını və hesabatlılığını təmin etmək, eləcə də investisiyalarda və siyasətlərdə iqtisadi, sosial və ekoloji problemlər arasındakı əlaqələrin öz təsdiqini tapmasını təmin etmək.
- Sosial müdafiəyə bərabər hüquqlu çıxış imkanını təmin etmək.
- Məlumatlara söykənən qərar qəbuluna, elm, texnologiya və innovasiyalara investisiya etmək.
- Sağlam qidalanmanı maddi baxımından əlçatan etmək və təşviq etmək.
- Bazarları açıq saxlamaq.
- Digər vasitələrlə yanaşı, daxili səviyyədə müxtəlif çeşidli qidalı ərzaqların yetişdirilməsi yolu ilə, daha davamlı, dayanıqlı və müxtəlif tərkibli təchizat zəncirləri yaratmaq.
- Aclığa qarşı həssas olan ölkələr üçün ərzaq ehtiyatlarının müyəssərliyini təmin etmək və maliyyə likvidliyini təmin etmək üçün beynəlxalq maliyyə institutları ilə işləmək.
- Aqro-ərzaq sistemlərində hamının fəal iştirakını təmin etmək üçün təcrid olunmuş qrupları dinlənilmək imkanı, alətlər və təlim imkanları ilə təmin etmək.
- Özəl sektoru əlçatan qiymətlərlə daha sağlam, dayanıqlı istehsal olunmuş ərzaq məhsulları təmin etməyə təşviq etmək üçün stimullaşdırıcı tədbirlər görmək.
- Ərzaq itkisi və israfını önləmək, məsuliyyətli istehlakı təşviq etmək.

### Şirkətlər, QHT-lər və elmi-tədqiqat institutlarının ata biləcəyi addımlar

- Məsuliyyətli istehsal təcrübələrinə öncüllük etmək, dayanıqlı şəkildə istehsal olunmuş inqrediyentlər tədarük etmək, tullantıları azaltmaq və daha dayanıqlı qablaşdırma təcrübələrinə üstünlük vermək.
- Həm də humanitar yardımın təməl komponentlərindən biri kimi, maddi baxımdan daha əlçatan, qidalı maddələrlə zəngin ərzaq məhsulları istehsal etmək və təşviq etmək.
- İnsan hüquqlarını və hesabatlılığı ön plana çəkmək.
- İnkişaf etməkdə olan ölkələrdə çalışan beynəlxalq və yerli təşkilatlara dəstək göstərmək .
- Aqro-ərzaq sisteminin iştirakçılarının maliyyə resurslarına çıxışını yaxşılaşdırmaq, biznesləri və bazarları daha inklüziv etmək, bu məqsədlə kiçik təsərrüfatları, qadınları, gəncləri və yerli xalqları cəlb etmək.
- Bacarıqlara əsaslanan təlimlər təşkil etmək, biliklərin mübadiləsini təşviq etmək və yerli infrastrukturu yaxşılaşdırmaq.
- Məlumatlara söykənən qərar qəbuluna, elm, texnologiya və innovasiyalara investisiya etmək.
- Hökumətlərin aqro-ərzaq sistemlərini köklü şəkildə necə dəyişə biləcəyinə dair həll yollarına yönələn məlumatları bölüşmək.

### Hamımızın ata biləcəyi addımlar

- Ərzaq təhlükəsizliyinə və qidalanmaya qarşı qlobal təhdidlər və mövcud çıxış yolları barədə məlumatlı qalmaq.
- Yerli qərarverici qurumları əhalinin ən həssas qruplarına dəstək göstərmək üçün tədbirlər görməyə çağırmaq.
- İnkişaf və yardım təşkilatlarına və icmanızdakı çağırışlara öz vaxtınız, pulunuz və resurslarınızla töhfə vermək.
- Yalnız ehtiyacımız olanı almaq və düzgün saxlama və yaradıcı yemək planlaşdırması ilə israfdan yayınmaq.
- Yerli qidaları seçmək, resurslardan çox istifadə edən məhsulları, o cümlədən ifrat qablaşdırmanı azaltmaq və mövsümi məhsulları yemək
- Fermer bazarlarında bazarlıq edərək və kiçik istehsalçılara dəstəyi göstərən nişanlara yönələrək kiçik istehsalçılara dəstək göstərmək.

# FAKTLAR

3.1 milyard nəfər – demək olar ki, dünya əhalisinin 40faiz-nin – sağlam qidalanmağa maddi imkanı yoxdur.

Təqribən 193 milyon nəfərin 2021-ci ildə sağ qalması üçün humanitar yardım tələb olunub.

2021-ci ildə 24 ölkə və ərazidə 139 milyon nəfər üçün kəskin ərzaq çatışmazlığı təhlükəsinin yüksək həddə olmasının əsas təkanverici qüvvəsi münaqişələr olub.

Bir tərəfdən 828 milyon nəfər, aclıq çəkir, digər tərəfdən yetkinlik yaşına çatmış hər obese, 8 nəfərdən 1-i piylənmədən əziyyət çəkir. Bu, dünyanın bütün regionlarında böyüməkdə olan bir problemdir.

İfrat yoxsulluq həddində yaşayanların 80faiz-dən kənd yerlərində yaşayır.

Ərzaq çatışmazlığı təhlükəsinin kəskin həddi ilə üzləşənlərin üçdə ikisi kənd yerlərindəki ərzaq məhsullarının istehsalçılarıdır.

Qlobal səviyyədə, qadınların orta və ya ağır dərəcədə ərzaq çatışmazlığı təhlükəsi ilə üzləşməsi ehtimalı kişilərlə müqayisədə 15faiz çoxdur.

Yerli xalqlar Yer kürəsinin səthinin 22faiz-də dünyanın yerüstü biomüxtəlifliyinin 80faiz-ni qoruyur. Lakin onlar yoxsulluq, pis qidalanma və məcburi daxili yerdəyişmənin daha yüksək səviyyələri ilə üzləşir.

Uşaq əməyinə cəlb olunan uşaqların sayı 160 milyondur. Dünyada uşaq əməyinin 70faiz-dan çoxu kənd təsərrüfatı sektorunun payına düşür.

©FAO



## ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI ÇIXIŞ YOLU KİMİ

Hazırda dünyada istixana qazı tullantılarının üçdə birə yaxını ərzaq və kənd təsərrüfatın sektorunun payına düşsə də, xoşbəxtlikdən, aqro-ərzaq sektoru də çıxış yolunun əsas komponentlərindən biri ola bilər.

Meşələr iqlim dəyişmələrinin təsirlərinə qarşı davamlılıq, uyğunlaşma və bu təsirlərin yumşaldılmasında mühüm rol oynayır, o cümlədən karbon uducu və yığıcıları kimi çıxış edir, biomüxtəlifliyi saxlayır, habelə iqlim böhranının təsirlərindən törəyən riskləri neytrallaşdırır. Meşəsizləşmənin dayandırılması və meşələrin qorunub saxlanılması 2020-2050-ci illər arasında ildə təqribən 3.6 qiqaton karbon dioksid ekvivalentinin (QtCO2e) atmosferə atılmasını (2030-cu ilədək qlobal istiləşməni 1.5°C-dən aşağı həddə saxlamaq üçün tələb olunan azalmanın 14 faizinə bərabərdir) önləyə, eyni zamanda Yer kürəsinin yerüstü biomüxtəlifliyinin yarıdan çoxunu qoruya bilər.

Deqradasiyaya məruz qalmış torpaqların bərpası və aqromeşəçiliyin genişləndirilməsi də çıxış yolunun bir hissəsidir. Bərpa tədbirləri nəticəsində, deqradasiyaya məruz qalmış 1.5 milyard hektar torpaq bərpa edilə bilər və artan ağac örtüyü daha 1 milyard hektar torpaq sahəsində kənd təsərrüfatının məhsuldarlığını artıra bilər. Deqradasiyaya məruz qalmış torpaqların meşələrin salınması və bərpası vasitəsilə bərpa edilməsi xərc baxımından da səmərəli olmaqla, 2020-2050-ci illər arasında atmosferdən ildə 1.5 QtCO2e yığa bilər. Bu, hər il yollardan benzinlə çalışan 325 milyona yaxın minik avtomobillərinin yığışdırılması ilə eyni təsirə malikdir.

16 oktyabr 2022-ci il

# Ümumdünya Ərzaq Günü

Məhz dünyanın 150 ölkəsində görülən birgə tədbirlər Ümumdünya Ərzaq Gününü BMT təqviminin ən çox qeyd edilən günlərindən birinə çevirir. Keçirilən yüzlərlə tədbir və maarifləndirmə işləri hökumətləri, biznesləri, vətəndaş cəmiyyəti təşkilatlarını (VCT-lər), KİV-i, ictimaiyyəti və eləcə də gəncləri bir araya gətirir. Onlar aclıqla üzləşənlər üçün, habelə heç kəsi kənarda qoymadan hamı üçün sağlam qidalanmanı təmin etmək üçün dünyanın hər yerində maarifləndirməni və tədbirlərin görülməsini təbliğ edir.

2022-ci ilin #ÜmumdünyaƏrzaqGünü (#WorldFoodDay 2022) çoxsaylı qlobal problemlərin, o cümlədən davam etməkdə olan pandemiya, münaqişələr, iqlim dəyişikliyi, qiymət artımı və beynəlxalq gərginliklərlə səciyyələnən bir ilə təsadüf edir. Bütün bunlar qlobal ərzaq təhlükəsizliyinə mənfi təsir göstərir.

Hamı üçün daha yaxşı, daha dayanıqlı dünya qurmaq üçün bir yerdə çalışmaq vaxtıdır. #ÜmumdünyaƏrzaqGününü ÖZ gününüzə çevirin. Tədbir və ya fəaliyyətlər təşkil etməklə və ya hansı addımlar atdığınızı göstərməklə çağırışa qoşulun.

FAO

**#ÜmumdünyaƏrzaqGünü (#WorldFoodDay)**
**#QidaQəhrəmanları (#FoodHeroes)**
fao.org/world-food-day

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI**

Viale delle Terme di Caracalla
00153 Rome, Italy

Some rights reserved. This work is available under a CC BY-NC-SA 3.0 IGO licence

© FAO, 2022
CC0689EN/1/09.22